**Azərbaycan Respublikası Auditorlar Palatasının sədri,**
**iqtisad elmləri doktoru, professor**
**Vahid Novruzova**

**Hörmətli Vahid müəllim!**

Azərbaycan Respublikası Auditorlar Palatasının 30 illik yubileyi və bu əlamətdar tarix münasibətilə 16 sentyabr 2026-cı ildə Bakı şəhərində keçirilmiş “Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol” mövzusunda beynəlxalq elmi-praktik konfrans münasibətilə Sizi və rəhbərlik etdiyiniz kollektivi ürəkdən təbrik edirik.

Fərəhlə qeyd etmək lazımdır ki, Azərbaycanda müstəqil audit sisteminin formalaşmasının hüquqi əsasları müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Məhz Ulu Öndərin 16 sentyabr 1994-cü ildə imzaladığı “Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanunu ölkəmizdə müstəqil auditor fəaliyyətinin təşəkkülü üçün möhkəm hüquqi zəmin yaratmışdır. Bu baxımdan Auditorlar Palatasının 30 illik yubileyi eyni zamanda Ulu Öndərin uzaqgörən dövlətçilik siyasətinin bəhrəsi olan mühüm bir institutun keçdiyi şərəfli inkişaf yolunun təntənəsidir.

Müstəqil Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş, ötən illər ərzində ölkəmizin iqtisadi qüdrətini və beynəlxalq nüfuzunu əhəmiyyətli dərəcədə yüksəltmiş Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan qloballaşan dünyada milli maraqlara söykənən, dərin düşüncəyə və strateji baxışa əsaslanan xarici siyasət həyata keçirərək beynəlxalq aləmdə öz mövqeyini daha da möhkəmləndirmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Auditorlar Palatasının 30 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfransın iştirakçılarına müraciətində qeyd etmişdir:

> *“Azərbaycan Respublikasının Auditorlar Palatası ötən dövr ərzində ölkədə müstəqil audit sisteminin institusional əsaslarının möhkəmləndirilməsi, peşəkar auditor kadrlarının hazırlanması, şəffaflıq və hesabatlılıq mühitinin inkişaf etdirilməsi, habelə beynəlxalq qabaqcıl təcrübəyə uyğun müasir audit modelinin formalaşdırılması istiqamətində olduqca əhəmiyyətli və zəruri işlər görmüşdür.”*

**Əziz Vahid müəllim!**

Bu uğurların əldə olunmasında Sizin uzunillik və fədakar əməyinizi xüsusi vurğulamaq lazımdır. Azərbaycanda müstəqil audit sisteminin əsaslarının qoyulduğu ilk dövrdən etibarən Siz bu mühüm prosesin önündə olmuş, milli audit sisteminin formalaşdırılmasına, onun institusional və peşəkar əsaslarının möhkəmləndirilməsinə, Auditorlar Palatasının nüfuzlu bir quruma çevrilməsinə böyük əmək sərf etmisiniz. Bu gün Palatanın qazandığı uğurlarda Sizin dövlətimizə, xalqımıza, ölkədə qanunun aliliyinə olan sadiqliyinizin, yüksək intelektə və idarəçilik qabiliyyətinə malik olmağınızın, zəhmətinizin, zəngin təcrübənizin və uzunillik rəhbərlik fəaliyyətinizin xüsusi payı vardır. Biz Sizinlə, gördüyünüz işlərlə və ölkəmizin audit sisteminin inkişafına verdiyiniz töhfələrlə fəxr edirik.

Auditorlar Palatasının 30 illik yubileyinin belə mötəbər beynəlxalq konfransla qeyd olunması da qurumun keçdiyi şərəfli yolun, qazandığı peşəkar nüfuzun və beynəlxalq əlaqələrinin bariz ifadəsidir.

**Hörmətli Vahid müəllim!**

Bu əlamətdar yubiley münasibətilə Sizi bir daha ürəkdən təbrik edir, Sizə və rəhbərlik etdiyiniz kollektivə möhkəm cansağlığı, firavanlıq və gələcək fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq.

*Dərin hörmət, səmimi dostluq və qardaşlıq duyğuları ilə,*

**Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutunun**
**direktoru, texnika üzrə fəlsəfə doktoru** **A. Qarayev**

**İnstitutun “Şəhərsalma, bina və qurğular üzrə tikinti normaları”**
**şöbəsinin müdiri, iqtisad üzrə fəlsəfə doktoru** **E. Nuriyev**